Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Zelenski: Bu il 26 kənd azad edilib

indicə




Volodimir Zelenski

Ukrayna hərbçiləri bu ilin yanvar-avqust aylarında Rusiyanın daha əvvəl ələ keçirdiyi 26 yaşayış məntəqəsini geri qaytarıb. Ukrayna prezidenti **Volodimir Zelenski** sosial şəbəkələrdə yazıb ki, bu məntəqələr Dnepropetrovsk, Donetsk və Zaporojye vilayətlərinin kəsişməsindəki Aleksandrovsk istiqamətində yerləşir.

Prezident 745 kvadratkilometr ərazinin azad edildiyini bildirib. Dediyinə görə, azı 9.5 min Rusiya hərbçisi öldürülüb və əsirlər götürülüb.

O, əməliyyatın davam edib-etmədiyini açıqlamayıb. Prezidentə bu barədə hərbi rəhbərlik məruzə edib.

Son aylar Pokrovskdan cənub-qərbdə, üç vilayətin kəsişməsində Ukrayna qoşunlarının hücumu barədə məlumatlar yayılırdı. Rusiyanın hərbi kanalları Ukrayna Silahlı

Qüvvələrinin bu istiqamətdə irəlilədiyini etiraf edir, ancaq bunun taktiki xarakterli olduğunu deyirdilər.

Cəbhənin digər hissələrində isə ya mövqelər dəyişməyib, ya da Rusiya qoşunlarının irəlilədiyi bildirilir. Rusiya qüvvələri son aylar Konstantinovkanın bir hissəsini nəzarətə götürüb, Slavyansk tərəfdə müəyyən qədər irəliləyib, Sumı və Xarkov vilayətlərinin sərhədyanı ərazilərində bir sıra yaşayış məntəqələrini ələ keçirib.

Qərb analitikləri 2026-cı ildə Rusiya qoşunlarının irəliləyiş tempinin zəiflədiyini qeyd ediblər.

🇺🇦DeepState🇺🇦




🔄 Мапу оновлено

Сили Оборони України звільнили Зелений Гай, Новохатське, Грушівське, Толстой, Зірку, Ялту, Піддубне, Мирне, Воскресенку, Січневе, Воронне, Тернове, Березове , Степове, Калинівське, Привілля, Злагоду, Рибне та Красногірське.

⚔️ Ворога відкинуто у Новопавлівці, Новогеоргіївці, Новомиколаївці, Новогригорівці, Запорізькому та Привільному.

Підтримайте збір для хлопців з 46 ОАеМБр на оптичні кабелі до дронів — https://send.monobank.ua/jar/88pkrej9nt. Зібрано 6 4 %.

У випадку неточностей, можете повідомити нам про це через бот @newsdeepstatebot.

deepstatemap.live

Мапа • Блог • Написати нам • ЗСУHelp • Підтримати нас

⭐78 🔥9.11K ❤️1.92K 845 👍223 👀215 102 ⚡60 24

455K 👁 Aug 12 at 19:01

## Novorossiyskdə Rusiya gəmiləri vurulub

Ötən gün Ukrayna Baş Qərargahı Novorossiyskə hücumda Rusiyanın dörd gəmisinin vurulduğunu açıqlayıb. "Admiral Makarov" və "Admiral Essen" freqatları, "Buyan-M" kiçik raket gəmisi və "Vasili Bıkov" patrul gəmisinin zədələndiyi xəbər verilir.

Hələlik, bu xəbəri müstəqil mənbələr təsdiqləməyib. Amma ötən gecə Novorossiysk limanındakı neft terminalında və Rusiya hərbi gəmiləri ilə sualtı qayıqlarının dayandığı Hərbi Limanda yanğınlar baş verib. Monitorinq kanallarına görə, Qərb körpüsü və 6 nömrəli körpü də vurulub.

Bundan başqa, Novorossiyskdə su kəməri infrastrukturu zədələnib. Kommunal xidmətlər şəhərə soyuq və isti su verilməsinin müvəqqəti dayandırıldığını bildiriblər. Limandakı taxıl terminalı da fəaliyyətini dayandırıb.

Rusiya hərbçiləri isə son vaxtlar Ukraynanın Odessa vilayətindəki limanlara hər gün zərbələr endirirlər.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur